# KİTABXANADA PATENTƏ DAİR İDDİA SƏNƏDİNİN HAZIRLANMASI

**_Natiq Rəşid oğlu Mürsəlov_**

*ADMİU-nun Kitabxana-informasiya mərkəzinin biblioqrafı,*
*Kulturologiya fakültəsinin baş müəllimi,*
*natig.mursalov@admiu.edu.az*

**_Açar sözlər:_** *alim, ixtira, faydalı model, rəsmi qeydiyyat, əqli mülkiyyət*
**_Ключевые слова:_** *ученый, изобретение, полезная модель, официальная регистрация, интеллектуальная собственность*
**_Keywords:_** *scientist, invention, utility model, official registration, intellectual property*

**Xülasə:** Müasir cəmiyyətin intellektual inkişafında yeniliklərin, texnoloji nailiyyətlərin və ixtiraların qorunması mühüm əhəmiyyət daşıyır. Patent hüquqları isə bu nailiyyətlərin mülkiyyət qorunmasını təmin edən əsas mexanizm kimi çıxış edir. Kitabxana elmi-tədqiqat müəssisələrinin və innovativ fəaliyyətlə məşğul olan fərdlərin informasiya bazası olmaqla yanaşı, patentləşdirmə prosesində də əhəmiyyətli rol oynayır. Onlar, patent araşdırmaları və sənəd hazırlığında mühüm mənbə və dəstək funksiyasını yerinə yetirir. Xüsusilə, elmi-texniki və ixtisaslaşdırılmış kitabxanalar geniş patent bazaları, hüquqi normativ aktlar, texniki ədəbiyyat və digər resurslarla təmin olunur. Bu məqalədə, kitabxana şəraitində patentə dair iddia sənədinin hazırlanması mərhələləri, bu işdə kitabxana resurslarının rolu və nəzərə alınmalı mühüm amillər geniş şəkildə araşdırılır.

**Резюме:** Защита инноваций, технологических достижений и изобретений имеет большое значение в интеллектуальном развитии современного общества. Патентные права выступают в качестве основного механизма, обеспечивающего имущественную защиту этих достижений. Библиотека, помимо того, что является информационной базой для научно-исследовательских учреждений и лиц, занимающихся инновационной деятельностью, также играет важную роль в процессе патентования. Они выполняют важную источнико-вспомогательную функцию в патентных исследованиях и подготовке документов. В частности, научно-технические и специализированные библиотеки обеспечены обширными патентными базами данных, нормативно-правовыми актами, технической литературой и другими ресурсами. В данной статье всесторонне рассматриваются этапы подготовки патентной заявки в библиотечной среде, роль библиотечных ресурсов в этой работе и важные факторы, которые необходимо учитывать.

**Summary:** The protection of innovations, technological achievements and inventions is of great importance in the intellectual development of modern society. Patent rights act as the main mechanism ensuring the property protection of these achievements. The library, in addition to being an information base for scientific research institutions and individuals engaged in innovative activities, also plays an important role in the patenting process. They perform an important source and support function in patent research and document preparation. In particular, scientific and technical and specialized libraries are provided with extensive patent databases, legal and regulatory acts, technical literature and other resources. This article comprehensively examines the stages of preparing a patent application in a library setting, the role of library resources in this work and important factors to be considered.

Patentin alınması barədə iddia sənədləri Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi (ƏMA) Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinə patentin alınması məqsədilə təqdim

edilən sənədlərdir. Bu sənədlərin tərtibi qaydaları ƏMA-nın İdarə Heyəti sədrinin 2020-ci il 1 iyun tarixli 33 nömrəli əmri ilə təsdiq edilmişdir. İddia sənədlərinə daxildir: 1) İddiaçı tərəfindən tərtib edilmiş ərizəsi; 2) İddia obyektinin təsviri; 3) İddia obyektinin düsturu; 4) Çertyoj, sxem və cədvəllər; 5) Referat; 6) Əgər şəxs (müəllif) müəyyən müəssisə və idarədə işləyirsə və iddia obyekti vəzifə tapşırığı ilə əlaqədar olaraq edilmişdirsə, həmin təşkilatın rəhbərinin imzası ilə təsdiq edilmiş məktub. Belə halda əlaqədar müəssisə, idarə patent sahibi kimi təsbit olunur; 7) Patent sahibinin ilkin ekspertiza və dövlət qeydiyyatı üçün ödədiyi rüsum; 8) Rüsumun azaldılması və ya rüsumödəmədən azadolma barədə sənəd; 9) Patent müvəkkili vasitəsilə verilən iddia sənədində müvəkkilin müvəkkiliyini təsdiq edən sənədin surəti; 10) Toksiloji və ekoloji təsir edən maddələr, üsullar və qurğu obyektləri üzrə iddia sənədlərinə toksaloji və ekoloji zərərsizliyi təsdiq edən sənəd; 11) Konvensiya ilkinliyi iddia edildikdə, ilk iddia sənədlərinin surəti (iddia sənədinin Ekspertiza Mərkəzinə daxil olduğu tarixdən üç aydan gec olmayaraq təqdim edilir) [1].

Patentin verilməsi haqqında ərizə, iddia obyektinin təsviri, iddia obyektinin düsturu, iddia obyektinin mahiyyətini başa düşmək üçün çertyoj və digər materiallar, həmçinin, referat üç nüsxədə təqdim edilir. Qalan sənədlər bir nüsxədə təqdim edilə bilər. Ərizədə Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) standartlarına uyğun olaraq patentin alınması ilə bağlı zəruri olan biblioqrafik məlumatların identifikasiyası üçün beynəlxalq İNİD (ÜƏMT st.9 və st.3) kodları üzrə məlumatlar öz əksini tapmalıdır. Məlumatlardan hər hansı biri ərizədə göstərilən qrafaya yerləşmədikdə, həmin qrafada "davamı əlavə vərəqdə" sözləri yazılmaqla əlavə vərəqdə verilir.

Patent verilməsi haqqında ərizədəki "Ərizə" sözünün yuxarısında yerləşmiş sütunlarda (22), (21), (85) kodlar üzrə qrafalar iddia sənədi daxil olduqdan sonra Agentlikdə doldurulur. İxtira və faydalı modelə patentin alınması üçün ərizə nümunələrində sol tərəfdə verilmiş (86), (87) və (96) kodları üzrə tələb olunan məlumatlar beynəlxalq iddia sənədinə (Patent kooperasiyası barədə Vaşinqton müqaviləsi – PCT proseduru çərçivəsində) və Avrasiya iddia sənədinə aid edilir. Həmin kodlara aid qrafalar beynəlxalq iddia sənədi və ya Avrasiya iddia sənədi verildikdə doldurulur. Sənaye nümunəsinə dair patentin alınması üçün Ərizə nümunəsində (85), (86), (87) və (96) kodları nəzərdə tutulmur [5].

(71) kod üzrə qrafada iddiaçı haqqında müvafiq məlumatlar qeyd edilir: fiziki şəxsin soyadı, adı, atasının adı; hüquqi şəxsin rəsmi adı (təsis sənədinə uyğun olaraq); iddiaçının yaşadığı və ya olduğu (yerləşdiyi) yerin ünvanı; elektron poçt ünvanı; st.3-standartlarına uyğun ölkə kodu. İddiaçı bir neçə şəxs olduqda (71) kod üzrə qrafada göstərilən məlumatlar onların hər biri üçün ayrıca verilməlidir. "Yazışma üçün ünvan" qrafasında iddiaçının soyadı, adı, atasının adı, əlaqə telefonu, elektron və ümumi poçt ünvanları, ərizə patent müvəkkili tərəfindən verildikdə onun soyadı, adı, atasının adı, olduğu və ya yaşadığı ünvan, əlaqə telefonu, elektron poçt ünvanı göstərilir [4].

(72) kod üzrə məlumat qrafalarında iddia obyektinin müəllif(lər)inin soyad(lar)ı, ad(lar)ı, atasının (atalarının) ad(lar)ı, ölkənin rəsmi adı, st.3 üzrə ölkə kodu, yaşadığı (yaşadıqları) və olduğu (olduqları) ünvan yazılır, həmçinin müəllif(lər) tərəfindən imza edilir. Qrafanın aşağı hissəsində iddia sənədi haqqında məlumatların dərcinə müəllif(lər)in razılıq verib-vermədiyi, habelə məlumatlar dərc olunarkən adının (adlarının) müəllif kimi göstərilib-göstərilməməsinə dair qeyd edilməlidir [3]. Sənədin (74) kod üzrə qrafasında müvafiq dördbucaq formasında olan qəfəsdə "x" işarəsi qoyulmaqla iddiaçını qanunvericilikdə müəyyən edilmiş qaydada təmsil edən patent müvəkkili və ya etibarnamə üzrə nümayəndənin soyadı, adı, atasının adı, yaşadığı və ya olduğu ünvan, telefon nömrəsi və elektron poçt ünvanı göstərilir.

İddiaçı bir neçə şəxs olduqda, onlar öz aralarından bir nəfəri iddia sənədi üzrə yazışmaların aparılması və ya zəruri hallarda ekspertin suallarına dair izahların verilməsi məqsədilə nümayəndə kimi müəyyən edə bilərlər. İddiaçılar tərəfindən bu cür seçim olmadıqda yazışmalar adı ərizədə birinci göstərilən iddiaçı ilə aparılır. "Təqdim edilən sənədlər" qrafasında dördbucaq formasında olan müvafiq qəfəsdə "x" işarəsi qoyulmaqla təqdim edilən sənədlərin vərəqlərinin və nüsxələrinin sayı

göstərilir. Bu qrafada göstərilməyən sənədlər "Məlumat xarakterli digər sənədlər" qrafasında göstərilir. "İlkinliyə dair ərizə" qrafasında yalnız iddia sənədinin Agentliyə daxil olma tarixindən daha əvvəlki ilkinlik istənildikdə dördbucaq formasında olan müvafiq qəfəsdə "x" işarəsi qoyulur. Bu halda "Patent haqqında" Qanunun 28-ci maddəsinin 2-ci, 6-cı, 7-ci hissələrinə və 29-cu maddəsinin 5-ci hissəsinə uyğun olaraq istənilən ilkinlik üçün əsaslar qeyd olunur, daha əvvəl verilən iddia sənədinin nömrəsi və ilkinlik tarixi göstərilir.

Ərizə iddiaçı və ya patent müvəkkili tərəfindən tarix göstərilməklə imzalanır. İddiaçı hüquqi şəxs olduqda ərizə təşkilatın rəhbəri və ya imza səlahiyyəti olan digər şəxs tərəfindən imzalanır. İmza edən şəxsin vəzifəsi, soyadı, adı göstərilir və imza möhürlə təsdiqlənir. "Ərizəyə əlavə" bu göstərilən qaydada imzalanır və təsdiqlənir [2]. Ərizə və ona qoşulan sənədlər iddiaçının özü, onun səlahiyyətli nümayəndəsi və ya Agentlikdə qeydiyyata alınmış patent müvəkkili vasitəsilə elektron qaydada, yaxud poçt vasitəsilə göndərilə və ya birbaşa Agentliyə təqdim oluna bilər.

İddia sənədi elə tərtib edilməlidir ki, bilavasitə onların surətlərini istənilən miqdarda çıxarmaq mümkün olsun. Sətirlər vərəqin kiçik tərəfinə (210 mm) paralel yerləşdirməklə, hər bir vərəqin ancaq bir üzünə çap edilir. İddia sənədinə qoşulan hər bir sənəd ayrıca vərəqdə hazırlanır. Sənəd sənəd A4 formatı olan (210x297 mm) ağ kağız vərəqlərdə tərtib edilməlidir. Patentin alınması üçün ərizə, iddia obyektinin təsviri, iddia obyektinin düsturu və referat vərəqlərdə çap edildikdə aşağıdakı miqdardan az olmayan boş yerlər saxlanılır: sol və aşağı tərəf - 25-40 mm., yuxarı tərəf - 20-40 mm - sağ tərəf-20-30 mm.

Kitabxanada patentə dair iddia sənədinin hazırlanması prosesində müəyyən çətinliklərlə qarşılaşmaq olar. Məsələn, məlumat çoxluğu və informasiya seçiminin mürəkkəbliyi, patent terminologiyasının və hüquqi tələblərin çətin anlaşılması, bəzi xüsusi patent bazalarının ödənişli olması və s. Bununla belə, müasir kitabxanalar rəqəmsallaşma və innovasiya yönümlü xidmətlərini genişləndirərək bu çətinlikləri minimallaşdırır və ixtiraçılara güclü dəstək verir.

Tədqiqatın nəticəsi olaraq belə bir ümumiləşdirmə aparaq ki, kitabxanada patentə dair iddia sənədinin hazırlanması hazırda innovativ fəaliyyətin uğurlu təşkili üçün vacib addımlardan biridir. Patentləşdirmə prosesində kitabxana resurslarından effektiv istifadə etmək, iddia obyektinin hüquqi mühafizəsini təmin etməklə yanaşı, onun kommersiya potensialını da artırır. Müasir kitabxanaların verdiyi imkanlar və xidmətlər isə bu prosesi daha əlçatan və sistemli edir. Beləliklə, intellektual məhsulların hüquqi qorunması sahəsində kitabxanaların rolu və əhəmiyyəti durmadan artmaqdadır.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin rəsmi veb səhifəsi [Elektron resurs]. - URL: https://patent.copat.gov.az/?sid=306
2. Azərbaycanda əqli mülkiyyət hüquqlarına dair bələdçi [Elektron resurs]. - URL: https://www.eda.admin.ch/dam/countries/countries-content/georgia/en/arc
3. Əqli Mülkiyyət Agentliyinin rəsmi veb səhifəsi [Elektron resurs]. - URL: http://copat.gov.az/
4. Patent haqqında Azərbaycan Respublikasının Qanunu/ 25 iyul 1997-ci ildə qəbul olunmuşdur. - URL: http://www.e-qanun.az/framework/3934
5. *Rüstəmov, Ə.* Patentlər və əmtəə nişanları: tərtibi və mühafizəsi. - Bakı, 2004. - 443 s.